**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.1.197**

**YEGANƏ AĞAMALIYEVA[1], FİDAN ABBASOVA[2]**

# ELEQANTLIQ - SONSUZ ZƏRİFLİK ÜSLUBUDUR

*İmicdən danışarkən, ilk növbədə, insanın xarici görünüşünü nəzərdə tuturuq. Görünüş insanın təbii xarici xüsusiyyətlərinə və geyiminə, eləcə də üslubuna aiddir.*

*Romantik, rəsmi biznes, idman, axşam geyimləri...*

*İmic meykerlər, əlbəttə ki, müxtəlif geyim üslubları ilə tanışdırlar və müəyyən təsnifata malikdirlər. Ancaq hər üslub zərif ola bilməz və qeyd etmək lazımdır ki, zəriflik anlayışının özü ofis geyim kodunun ən vacib və zəruri komponentlərindən biridir.*

*"Zəriflik insan zəkasının təzahürlərindən biridir". (G. Armani)*

*Zəriflik geyimdəki gözəllik, nəcib sadəlik, ciddilik, yaxşı forma, incəlik, xətlərin saflığı, müəyyən nəciblik, qeyri-adilikdir.*

*Qəşəng üslublardan birinə üstünlük verən insan həmişə kifayət qədər sadə və eyni zamanda zərif geyinir, seçim qabiliyyətini ortaya qoyur, yəni onun geyiminin bütün elementləri bir-biri ilə ahəngdardır, tam həssaslıqla bir-birinə uyğun gəlir. .*

*Zəriflik öz mövqeyini təkmilləşdirməyin son dərəcə vacib tərkib hissəsidir və bütün digər mənalarla yanaşı peşəkarlıq, fərdilik mənasını daşıyır. Moda və üslub dünyasında zərifliyi təqlid etməyin iki istiqaməti var - kino dünyası və siyasət dünyası.*

***Açar sözlər:*** *Zəriflik, görünüş, ciddilik, gözəllik, təbii xarici xüsusiyyətlər və geyim*

## Giriş

İmic haqqında danışarkən, ilk növbədə, insanın xarici görkəmi nəzərdə tutulur. Xarici görkəm insanın təbii xarici əlamətləri və geyimi, eləcə də üslubunu bildirir.

Romantik, rəsmi – işgüzar, idman, gecə ziyafəti geyimləri...

İmicmeykerlər, əlbəttə, müxtəlif geyim üslublarına bələddir və müəyyən təsnifata malikdir. Amma üslublardan hər biri eleqanlı ola bilməz, həmçinin qeyd etmək lazımdır ki, eleqantlıq məfhumun özü ofis personasının dress - kodunun son dərəcə mühüm və əhəmiyyətli tərkib hissələrdən biridir.

Eleqantlıq – insan zəkasının təzahür formalarından biridir. (C.Armani)

Eleqantlıq – geyimdə gözəllik, nəcib sadəlik, ciddilik, yaxşı biçim, zəriflik, xətlərin saflığı, müəyyən zadəganlıq, qeyri-adilik deməkdir.

Eleqant üslublardan birinə üstülük verən persona hər zaman kifayət qədər sadə və eyni zamanda nəfis, seçmə qabiliyyətini ortaya qoymaqla geyinir, yəni onun geyiminin bütün elementləri bir-birilə uzlaşır, bir-birinə tam həssaslıqla uyğunlaşdırılır.

Eleqantlıq – personanın öz mövqelərinin yaxılaşdırılması işinin son dərəcə mühüm tərkib hissəsidi və bütün digər mənalarla yanaşı həmçinin peşəkarlıq, fərdlilik əhəmiyyətinə malikdir. Dəb və üslub aləmində eleqantlıq münasibətində təqlidçilik üçün iki istiqamət vardır. Bunlardan biri kino aləmindən, digər isə siyasət aləmindəndir.

## Əsas təhlil

Yayda insan rahat sərbəst olmağa çalışır və yüngül bir paltar geyinməyə can atır. Yüksək hərarət, günəş... Lakin işgüzar etiket və protokol qaydalarını heç kim ləğv etməmişdi. Bundan əlavə, bu gün dress-kod müəyyən demokratiklik və "qeyri-futlyarlıq" nəzərdə tutur. Hətta ciddi şirkətlərdə qolsuz donlar geyinmiş qadınların görmək mümkündür. Təbii ki, əgər onlar çox da göz önündə deyil və onların danışıqlarda iştirakı nəzərdə tutulmur.

Rəhbər işçilər də olduğu kimi, sıravi əməkdaşlar da şirkəti təmsil edir, onun icimini formalaşdırır.

Bəs onda niyə yaraşıqlı şalvar geymiş gənc qızları rəhbərliyin nümayəndəsi kimi qəbul etmirlər? Nə üçün əlvan rəngli don geymiş bir qədər kök qadını ciddi işgüzar qadının oxşarlığı hesab etmirlər, onu sadəcə olaraq anbar müdiri kimi qəbul edirlər? Şirkətin, demək olar ki, hər bir əməkdaşının imici – bu, nümayəndəlik, mövqeləşmə, imic deməkdir... Məhz buna görə, əlbəttə ki, hər şeydən əvvəl belə peşəkarın xarici görkəminə, onun hərəkət tərzinə, ünsiyyət üslubuna, davranışlarına fikir verirlər.

Eleqantlıq nədir? Eleqantlı olmaq üçün, bunun istəyində olmaq, bunu başa düşmək, istəmək və bacarmaq lazımdır. Və, əlbəttə ki, eleqantlığın özünün nədən ibarət olduğu haqqında təsəvvürlərə malik olmaq gərəkdir.

Eleqantlıq fransız dilində elegant sözündən əmələ gəlib ki, bu da "gözəl, zərif, incə" deməkdir və bizi XIX - XX əsrlərin konservativ klassikasına qaydatar estetikanı ifadə edir. "Eleqantlıq" məfhumu həmçinin latın dilində elegare (seçmək, uyğunlaşdırmaq) ilə bağlayırlar.

Zamanında dünyanın ən birinci gözəl qadını elan edilmiş Odri Höpbern təkcə olduqca yaraşıqlı xarici görkəminə görə deyil, həmçinin zərif hərəkətlərinə, səmimi gülüşünə, özünün mehriban ifadəsinə və qəlbinin, əlbəttə ki, makiyajsız da nəzərə çarpan gözəlliyinə görə bu şərəfə layiq görülmüşdür.

Belə bir anlayış mövcuddur – şlyapanı taxmaq, ətəyi, paltonu geyinmək bacarığı. Parlaq Odri ən sadə geyimi belə yüksək dəb əsəri kimi seçməyi və geyinməyi bacarırdı. O, "eleqantlıq" məfhumuna və onuun özünə ideal şəkildə uyğun olan əşyalara üstünlük verirdi, bu əşyalar biçimə görə kifayət qədər sadə, faktura baxımından isə nəcib idi. Onların arasında jaketlər, təbii parçalardan tikilmiş zınqırov - ətəklər və karandaş - ətəklər, vodolazkalar və kiçik qara don yer alırdı. Donlar Odrinin şərtsiz üstünlüklərini: fiqurunu qeyd edir, ayaqları örtmürdü, boyun nahiyyəsini açır və çiyinləri bir qədər ennədirdi. Bu baxımdan onun Jivanşi və Tiffaninin siması olduğu qətiyyən təsadüf deyildi. Kutürye Yuber-de Jivanşi eleqantlığın nə olduğunu gözəl anlayan zadəgan idi. "Tiffani gildə səhər yeməyi" adlı məşhur filmdən sonra böyük aktrisa və eleqantlığın etalonu zərgərlik brendini son dərəcə məşhur etmişdi.

Jivanşinin digər qadın müştərisi ABŞ-ın 35-ci prezidentinin həyat yoldaşı Jaklin Kennedi idi. Ceki (Jaklin Kenedini belə çağırırdılar) farnsız idi və tarixə, hər şeydən əvvəl, malik olduğu qüsursuz zövqə və eleqantlığına görə daxil olmuşdu. 1961-ci ildə Fransaya səfəri zamanı mətbuat Jaklini "Əlahəzrət eleqantlıq" adlandırmışdı.

Jaklin geyimdə daha iki brendə üstünlük verirdi – Kristobal Balensiaqa və Şanel, onlar isə eleqantlığın klassikası hesab olunurdu. (Kutürye Balensiaqa təkcə kral saray əhli və ən eleqantlı xanımlar üçün haute couture tikmirdi. O, həmçinin, kvadrat şəkilli çiyinləri, açıq boyun nayihəsi və çiyinlərlə geyimi dəbə gətirmiş, don-kisəni icad etmişdir ki, həmin libas da özünün sadəliyinə görə eleqantlı üslubun bir çox pərəstişkar qadınların qarderobuna daxil olmuşdur.)

Ceki onun firma üslubuna çevrilmiş olduqca sadə geyimlər geyinir: şlyapa-qutucuq, həmin baş örtüyü üzün və heyrətamiz saçın yaraşıqlığını qeyd edirdi, habelə boyunu uzadan açıq yaxalıqlı donlar. Bütün tualetləri eleqantlığın əsas əlamətlər fərqləndirirdi – sadəlik və həndəsi ciddilik.

Gündüzlər prezidentin həyat yoldaşı iri düyməli geyimlərdən istifadə edir, axşamlar isə sadə libasa bel xətti üzərinə yaxud çiyinə bant bərkidirdi. Köynək-dona üstülük verirdi. Ornamentsiz, açıq çalarlı geyimə üstünlük verirdi və incə-çəhrayı rəngə xüsusi rəğbətlə yanaşırdı.

Küçəyə çıxarkən Paris sayağı beret və sadə yun palto geyirdi. Jaklin Kennedinin riayət etdiyi üslubun firma əlamətləri qismində mirvarilər, bant və yarımuzun əlcəklər çıxış etməyə başladı.

Yuxarıda deyildiyi kimi, hətta ən sadə geyimdə eleqantlı olmaqda davam etmək mümkündür. Jaklin Onassis olduqda, o, istifadə etdiyi bütün geyim nümunələri ilə yanaşı həmçinin sviter və futbolkalarla (nazik idman köynəklərlə) birgə düz şalvar da geyinməyə başladı və bununla bərabər yenə də əvvəlki kimi üslublu qadın sayılırdı.

Birinci ledi öz həyat yoldaşını xarakterizə etdiyi və onun reputasiyasını kölgə altına saldığı kimi, göz önündə olan assistent və əməkdaşlarda həmçinin şirkətin, öz rəhbərinin respektabelliyini nəzərə çarpdırır və özlərinə məxsus eleqant üslub hesabına öz peşəkarlığını nümayiş etdirirlər.

İşgüzar qadın yaxud işgüzar kişi ən bahalı kostyum geyinsə belə, özünü qeyri - korrekt aparmağı yaxud tutarsız davranışı ilə heç zaman eleqantlı hesab oluna bilməz. Eyni zamanda, özünü həddindən artıq sərbəst, ədəbsizcəsinə aparan, pis ünsiyyət quran və yaramaz maneralara malik insan da həmçinin eleqantlı hesab oluna bilməz. Məsələ burasındadır ki, eleqantlıq – bu, həm qamət, həm baş nahiyəsinin yaraşıqlı dönüşü, ümumi zəriflik, üzün yaxşı ifadəsi deməkdir (misal üçün, Odri Höpbern).

Adətən mağazada baxışlar ən sadə və bu sadəlikdə effektiv olan bir əşyaya yönəlir. Nə üçün belə olur? Çünki həmin əşya eleqanlığı ilə diqqət çəkir. Sadəlikdən əlavə, eleqantlıq həmçinin məhz konkret personaya yaraşan yaxşı lekal, əla biçimi, keyfiyyətli parçanı, monoxromluğu yaxud harmonik

surətdə bölüşdürülmüş rənglərin böyük olmayan miqdarını nəzərdə tutur. Eleqant kostyum geyinmiş qadın yaxud kişi hər zaman əla və bahalı görünəcək.

Keyfiyyətli əşyaya (istər kostyum, istərsə də libas olsun) tərif vermək zərurəti yarandıqda, deyirlər: "bahalı sadəlik" yaxud, əksinə, bəzədilmə-ryuşalar, strazlar və s. nə dərəcədə"nəzərə çarpan" olsa, həmin əşyanı geyinmiş persona bir o qədər də vulqar, bayağı "çalar" əldə etmiş olacaq.

Bəzən "eleqant yaşlı qadını" deyirlər və nəzərdə tuturlar ki, həmin qadın üçün artıq hər bir şey keçmişdə qaldı və onun darıxdırıcı, boz çalarlı geyimdən istifadə etməyi özünə rəva bilməsi tam mümkündür. Lakin eleqantlığın darıxdırıcı olması ilə bağlı replikanı tam əminliklə mif adlandıra bilərik. Çünki eleqantlıq – zəriflik, alicənablıq, nəfislik deməkdir. Məgər alicənablıq və nəfislik darıxdırıcı ola bilər?..

Eleqantlıq bayağılığı nəzərə çarpdırmır, lakin onun olduğu təqdirdə həm də gizlətmir, pərdələmir. Eleqantlı geyimə davranış – işə hər hansı digər keyfiyyətləri nümayiş etdirmək üçün deyil, məhz işləmək məqsədilə gələn sözün əsl mənasında peşəkarlar üçün olduqca yaxşı "daldalanacaqdır". Eleqantlığın xüsusiyyətlərindən biri - əxlaq, ismət, saflıqdır.

Maraqlıdır ki, eleqantlıq qanunları işgüzar, rəsmi üslubun qaydaları ilə, praktiki cəhətdən, tamamilə üst-üstə düşür. Və koorporativ standartlarda tətbiq edilən bu dress-kod yaxşı zövqə malik və eleqantlıq posulatlarından xəbərdar olan personaya praktiki cəhətdən tələb olunmur. Eleqantlıq üslubun və qarderobun (qadınlar üçün) formalaşdırılmasının müəyyən qaydalarını nəzərdə tutur. Bunlaq aşağıdakılardam ibarətdir:

- üç əsas rəngdən çox olmaması (məsələn, klassik birləşmə - qara və ağ, boyun dəsmalı şəklində üçüncü rəng də əlavə olunur; boz və çəhrayi, və sair).

Monoxrom, yəni bir rəngli elemetlər həmişə eyni vaxtda həm eleqant, həm də effektiv görünür. Məsələn, bir rəngdə olan kostyum (boz, tünd-göy, şokoladlı, bordo...), yayda – açır tonlu (əridilmiş yağ rəngi, yumşaq-boz, bej...).

Əgər söhbət işgüzar üslubdan gedirsə, o zaman yaxşı olardı ki, rənglər bir qədər təvazölü olsun (yayda – pastel rənglərə üstünlük verilməsi tövsiyyə olunur). Əgər axşam ziyafətinə yollanmaq planlaşdırılırsa, o zaman paltar qara, ancaq yayğın olmayan qara rəngdə, yaxud, məsələn, qırmızı rəngə olmalıdır. Lakin sarı, yaşıl və bu kimi digər rənglərin ifrat əlavələrinə yol verilməməlidir;

— yaxşı biçim, yaxşı tikilmiş geyim bədən quruluşunun çatışmazlıqlarını gizlətməyə və onun üstünlüklərini nəzərə çarpdırmağa imkan verir;

— ciddilik, aseksuallıq (iş yerində qeyri-ciddi, təhrikedici görkəm və provokasiyalar istisna olunur);

— korrekt rənglər (fərdi rəng tipinə uyğun olaraq);

— müəyyən qədər bəzək əşyaların olması məqsədəuyğundur, onlar rənglə, faktura ilə harmoniya təşkil etməli, kostyumun gözəlliyini nəzərə çarpdırmalı, ölçü, rəng ümumi obraza üslub baxımından yaraşmalıdır;

— trikotaj məmulatdan (kofta, puloverdən) daha çox pencək, bluza, don;

— səliqəli saç düzümü;

— müəyyən üslublar (klassik, işgüzar, rəsmi, axşam ziyafəti);

— ayaqqabı (dəbli ola bilər, lakin ucunun bağlı olması mütləqdir);

— səliqəli manikür (lakın rəngləri esktremal, yəni qara, göy, eləcə də rəngbərəng olmamalıdır);

— uzunboğaz corabladan yaxud kolqotkalardan istifadə məqsədəuyğundur (əvvəllər həmişə kolgotkalardan istifadə etmək tövsiyyə olunurdu, lakin hazırda, iqlim şəraiti dəyişdiyi üçün bəzi şirkətlərdə onlardan istifadə etməməyə icazə verilir. Bu zaman protokol tədbirlərə - xarici nümayəndə heyətinin qəbuluna, ciddi danışıqların aparılmasına – ciddi eleqanlı kostyumla kolqotlardan yaxud uzunboğaz corablardan istifadə tövsiyyələri dəyişməz olaraq qalır);

— qədd - qamətlilik, mütənasiblik (məsələn, işgüzar kostyuma çanta - baul və bu kimi digər aksessuarlar qətiyyən uyğun gəlmir);

— hər şeyin harmonikliyi – geyim elementləri bir - birilə tam uzlaşır;

— gözə çarpmayan və keyfiyyətlə yerinə yetirilmiş makiyaj (axşam – daha parlaq, lakin tədbirə tam adekvat olan);

— eleqant xarici görkəmə uyğun olan hərəkətlər (sakit, rəvan hərəkətlər, imkan daxilində katibin operativ fəaliyyəti zamanı);

— həddi aşmamaq (nə qeyri-adilik və ekstravaqantlıq, nə bahalı əşyalardan hədsiz dərəcədə istifadə, nə də ki, bahalı olsa da, tam zövqsüz brendlər qəbul olunmur).

Və əlbəttə, ümumi səliqəlilik və təmizkarlıq. Son illərdə insanlar arasında sorğu keçirilmişdir. Həmin sorğuda iştirak edən biznes rəhbərləri və sahibləri belə bir fikir səsləndirmişlər ki, onlar bu günə qədər ofis mühitində rəsmi, işgüzar, bu isə o deməkdir ki, həm də eleqant üsluba hətta ən isti günlərdə də riayət etməyə çalışırlar. Aydındır ki, onlar öz baxış müstəvisindən yanaşaraq və öz baxışların uyğun şəkildə tabeliyində olan işçiləri görmək istəyir.

**Nəticə**

Beləliklə, kostyumda üslub geyimin vahid obrazlı görünüşünü təmin edən bədii vasitələrin və ifadəli üslubların toplusudur. Üslub birbaşa dəblə əlaqəlidir, ancaq, ondan fərqi budur ki, dəb tez-tez və dayanmadan dəyişir. Halbuki, üslub sabitlik və daimilik ilə xarakterizə olunur. Uzun zaman boyunca incəsənətdə və kostyumda, bütünlükdə ancaq hər hansı bir üslubun hökm sürdüyü tarixi mərhələlərdən fərqlənərək XX əsrdən başlayaraq modada bir çox üslub növləri mövcud olub və hal-hazırda da mövcuddur: idman; romantik; klassik; folklor.

Dəb trendlərinin hər zaman dəyişməsinə baxmayaraq adları çəkilən üslublarla yanaşı eleqant üslub, kostyumlarda bu və ya müxtəlif formalarda mövcuddur. Bu üslub öz aktuallığını XXI əsrdə də itirməyəcək. Müasir geyimdəki üslubun xüsusiyyəti və əlamətləri insanin cəmiyyətdə tutduğu ən yüksək mövqenin göstəricisi hesab edilə bilər.

**ƏDƏBİYYAT**


1. Ларионов В.Г., Мелъников О.Н. "Имиджъ менеджера". Основы менеджмента учеб. пособие для сред.-спец. учеб. заведений / В.Р. Веснин. - М. : Элит, 2001. - 440 с
2. Шекня С.В. Управление персоналом современной организации. – 2002, с. 368
3. Diana Crane, Moda ve Gündemleri: Giyimde Sınıf, Cinsiyet ve Kimlik, Çeviren: Özge Çelik, Ayrıntı Yayınları, İstanbul, 2003, 243 s.



***[1]Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), dosent***
***e-mail: yegana.ch.aghamaliyeva@gmail.com***
***[2]Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), magistr***
***e-mail: fidankhanlar@gmail.com***

**Yegana Aghamaliyeva, Fidan Abbasova**


**ELEGANCE IS A STYLE OF ENDLESS ELEGANCE**


Speaking about image, first of all, we mean the appearance of a person. Appearance refers to a person's natural external features and clothing, as well as his style.

Romantic, formal business, sports, evening wear...

Image makers, of course, are familiar with different styles of clothing and have a certain classification. But not every style can be elegant, and it should be noted that the very concept of elegance is one of the most important and necessary components of the office dress code.

"Elegance is one of the manifestations of human intelligence." (G. Armani)

Elegance is beauty in clothing, noble simplicity, seriousness, good form, tenderness, purity of lines, a certain nobility, unusualness.

A person who gives preference to one of the elegant styles always dresses quite simply and at the same time elegantly, revealing the ability to choose, that is, all the elements of his outfit are harmonious with each other, matched to each other with complete sensitivity.

Elegance is an extremely important component of improving one's position and has the meaning of professionalism, individuality along with all other meanings. In the world of fashion and style, there are two directions for emulating elegance - the world of cinema and the world of politics.



**Keywords:** *Elegance, appearance, seriousness, beauty, natural external features and clothing*

**Егана Агамалиева, Фидан Аббасова**

## ЭЛЕГАНТНОСТЬ – ЭТО СТИЛЬ БЕСКОНЕЧНОЙ ЭЛЕГАНТНОСТИ

Говоря об имидже, прежде всего, подразумевают внешний облик человека. Под внешностью понимаются естественные внешние особенности и одежда человека, а также его стиль.

Романтическая, официально-деловая, спортивная, вечерняя одежда...

Имиджмейкеры, конечно, знакомы с разными стилями одежды и имеют определенную классификацию. Но не каждый стиль может быть элегантным, и следует отметить, что само понятие элегантности – одна из важнейших и нужных составляющих дресс-кода офисного образа.

«Элегантность – одно из проявлений человеческого интеллекта». (Дж. Армани)

Элегантность – это красота в одежде, благородная простота, серьезность, хорошая форма, нежность, чистота линий, определенное благородство, необычность.

Персона, отдающая предпочтение одному из элегантных стилей, всегда одевается достаточно просто и в то же время элегантно, раскрывая способность выбора, то есть все элементы его наряда гармоничны друг с другом, подобраны друг к другу с полной чуткостью.

Элегантность является чрезвычайно важной составляющей улучшения собственного положения и имеет значение профессионализма, индивидуальности наряду со всеми другими значениями. В мире моды и стиля есть два направления для подражания элегантности – мир кино и мир политики.

Ключевые слова: Элегантность, внешность, серьезность, красота, естественные внешние черты и одежда.

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 19.01.2024**
**Son daxilolma tarixi:11.03.2024**